Kredo.- 2023.- 14 iyul. S. 15.

# Azərbaycan nağıllarında xalça motivi

Azərbaycan xalq nağıllarında xalça ilə bağlı motivləri əsasən iki istiqamətdə qruplaşdıra bilərik. Bunlardan biri sehrli nağıllarda rast gəlinən uçan xalça obrazıdır. Digəri isə məişət nağıllarındakı xalça toxumaq sənəti ilə bağlı məsələdir. Ona görə də bu mövzumuzda Azərbaycan xalq nağıllarında uçan xalça anlayışı və xalçaçılıq sənəti ilə bağlı xalqın ifadə etmək istədiyi ideyalardan danışmaq istəyirik.

Qəhrəmana kömək edən sehrli əşyalar içərisində uçan xalça obrazı nağıllarımızda çox geniş yayılmış motivdir. Məlumdur ki, nağıllar epik folklorumuzun ən geniş yayılmış janrlarından biridir və xalqımızın arzu və düşüncələri bədii fantaziya şəklində burada təcəssümünü tapmışdır. Elmin, texnikanın inkişaf etmədiyi zamanların məhsulu olan bu nağıllarda əksini tapan uçan xalça obrazı, heç şübhəsiz ki, xalqın quş kimi göydə uça bilmək, uzaq mənzili az vaxtda qət etmək və s. kimi arzu və düşüncələrindən doğmuşdur.

Bədii kəşf şəklində nağıllarda əksini tapan uçan xalça ideyası sonradan texniki elmlərin mütəxəssisləri tərəfindən yaradıcı təfəkkürün qüdrəti ilə real həyatda - müasir dövrdə aeroplan, təyyarə, samolyot və s.nin timsalında gerçəkliyə çevrilmişdir. Başqa sözlə, humanitar düşüncənin evristik ideyası sonradan fizikanın qanunları, kimyəvi elementlərin və s.nin hesabına həyatda reallığa çevrilir. Bu günün özündə belə televiziya kanallarından izlədiyimiz bəzi qeyri-adi hadisələrin illər sonra yaşayışımızda cərəyan etdiyini dəfələrcə görməyimiz buna bir əyani misaldır. Yəni bədii ədəbiyyatda, şifahi və yazılı ədəbiyyatda və həmin ədəbi-bədii düşüncənin ekran təcəssümündə xəyali-fantastik formada rastlaşdığımız qeyri-adiliklər sonradan müxtəlif elm sahələrinin mütəxəssisləri tərəfindən yaradıcı təfəkkürün qüdrəti ilə təsdiqə çevrilir. Eləcə də bizim nağıllarımızdakı uçan xalça ideyası bu gün artıq nağıl yox, reallıqdır.

“Paççah oğlu” nağılından uçan xalça ilə bağlı bir epizoda diqqəti yönəldib, onun əsasında fikirlərimizi şərh edək: “Məlih Əhməd atın üstündə bir az ağlıyıf piyada yola düşdü. Gethaget gəlif bir düzəngaha çıxdı.  Baxıf gördü ki, uzaxda üş qaraltı var, adama oxşayırlar. Bunu görüf söyündü. Yaxınnaşanda baxıf gördü ki, üş div mübahisə eliyir. Məlih Əhməd divlərə yaxınlaşıf soruşdu:

- Div qardaşdar, mübahisəniz nə üstədi?

Divlərdən biri dedi:

- Ey bəni-insan, yaxşı vaxtında gəlif çıxdın. Bizim mübahisəmizi həll elə.

Məlih Əhməd xəvər aldı:

- Deyin görəh mübahisəniz nə üstədi?

Həmin div dedi:

- Biz üç qardaşıx, atamızdan bizə dörd şey qalıf. İndi onu bölə bilmirih.

- O şeylər nədi ki, bölə bilmirsiniz? - deyə Məlih Əhməd xəvər aldı.

- Papax, dəyənəh, xalça və süfrə.

Məlih Əhməd xəvər aldı:

- Adam da papaxdan, xalçadan ötrü mübahisə eliyər? Mən də elə bilirdim xəzinəniz var, onu bölə bilmirsiniz?

***(Davamı var)***

***Şakir ALBALIYEV,***
***filologiya üzrə fəlsəfə doktoru***